Tərbiyə məsələləri

MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR AİLƏNİN TƏRBİYƏ MƏKTƏBİDİR

Miri Həsənov
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Açar sözlər: *milli-mənəvi dəyərlər, tərbiyə, pedaqogika, müəllim, şagird.*
Ключевые слова: *национально-морального, воспитание, педагогика, учитель, ученик.*
Key words: *national moral values, upbringing, pedagogy, teacher, student.*

Qloballaşma dövründə dünya xalqlarının, o cümlədən İslam dünyasının tarixən yaratdığı adət-ənənələr, milli-mənəvi dəyərlər, ailə-nikah məsələləri, ailənin quruluşu və s. yenidən göz önünə gəlir. Yeni dünyada yeni əxlaqi tələblərlə üzləşməli olursan... Bu tələblərə cavab vermək, düzgün tərbiyə sistemi yaratmaq üçün “Qurani Kərim”ə, islam dəyərlərinə, şifahi xalq yaradıcılığına, milli, yazılı ədəbiyyatımıza daha dərindən bələd olmaq zərurəti yaranır...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2006-cı il 30 avqustda qəbul edilmiş Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009) 1.17-ci bəndində göstərilən “Gənclərin milli-ənənəvi və dini dəyərlərə uyğun tərbiyə olunması işinin təkmilləşdirilməsi ön plana çəkilməlidir” çağırışı İslam dəyərlərinə əsaslanaraq gənclərin tərbiyəsinin təkmilləşməsinə münbit şərait yaradıldığının aydın təzahürüdür.

İslamın təşəkkülü dünya sivilizasiyasının tarixində çox mühüm hadisə olmuşdur. O, Ulu Yaradanın iradəsi və Onun Rəsulu Məhəmməd Peyğəmbərin cəsarətli, davamlı fəaliyyəti sayəsində meydana gəlmişdir. İslam dini dünyəvi sivilizasiyalardan biri olaraq, bəşər cəmiyyətinə ülvi mədəniyyət, mənəviyyat nümunələri bəxş etmişdir. Onlar Allahın vahidliyinə, gözəgörünməzliyinə, əvəzedilməzliyinə, onun yenilməz ilahi qüdrətinə, mərhəmətinə və axirət dünyasına inam, iman və itaət, onun qarşısında pak, sədaqətli, mərhəmətli, rəhimli, əqidəli, cəsarətli, fədakar, humanist, xeyirxah, təvazökar və s. mənəvi dəyərlərdə özünü təcəssüm etdirir. Bu sıraya islam ümmətinin Allah qarşısında itaətə, inama, mənəvi saflığa, əqidəliliyə, sədaqətə dəlalət edən namaz, orucluq, həcc və digər müqəddəs dini yerləri ziyarət də daxildir.

- İslamın, onun mənəvi dəyərlərinin meydana gəlməsi və formalaşmasının nəsillərə ötürülməsi imkan və yollarının izlənilməsi müasir tələblər baxımından da çox vacib və önəmlidir;

- Araşdırmalar göstərir ki, islam dəyərləri çox zəngin nəzəri bazaya malikdir. Bu, özünü müqəddəs “Qurani Kərim”də, Məhəmməd Peyğəmbərin və imamların hədis və deyimlərində də göstərir;

- Mövcud şəraitin, milli adət-ənənələrin, təlim alanların yaşayış tərzinin, mənəvi səviyyəsinin nəzərə alınması böyüməkdə olan nəslin, o cümlədən şagirdlərin islam mənəvi dəyərləri əsasında tərbiyəsinin səmərəliliyində mühüm şərtdir;

Məlumdur ki, bəşər cəmiyyətinin bütün inkişafı tarixində yaşlı nəslin nümayən-

* 7 “Azərbaycan məktəbi” № 3

dələri uşaqların inkişafı və tərbiyəsinin qayğısına qalmışlar. Uşağın qayğısına qalmaq və onu tərbiyə etmək, hər şeydən əvvəl, ona görə zəruri olmuşdur ki, insan son dərəcə aciz və müstəqil yaşamağa qabil olmayan bir məxluq kimi doğulur və onun uşaqlıq çağları uzun müddət davam edir. Əgər bu müddət ərzində uşağın mühafizə olunmasına müntəzəm qayğı göstərilməzsə, tərbiyəsinə fikir verilməzsə, uşaq yaşlılar tərəfindən bəslənib yetişdirilməzsə, o, cismən və ən başlıcası isə mənən məhv olar, insan nəsli inkişaf edib artmaz. Halbuki öz nəslini davam etdirmək qayğısına qalmaq insanda da sövqi-təbiidir. İnsanlar heç vaxt rahat qocalığı təmin edən, "bel bağlamağa" ümid verən etibarlı nəsil yetişdirmək üçün əllərindən gələni əsirgəməmişlər. Beləliklə, uşaqların-varislərin inkişafı və tərbiyəsi ilə məşğul olmaq insanların, hər şeydən əvvəl, öz nəslini artırıb inkişaf etdirməsi, son nəticədə isə cəmiyyətin irəliyə doğru inkişafını təmin etməsi üçün zəruridir. Yaşlı insanlar öz nəsillərini, cəmiyyəti yaşatmaq və irəliyə doğru inkişaf etdirmək üçün uşaqları ictimai həyata hazırlamalı, onları tərbiyə etməlidilər. Bütün bunlar göstərir ki, tərbiyə insanların ictimai əmək fəaliyyəti prosesində yaranmış, bəşəriyyətin praktik tələbatından asılı olmuş və cəmiyyətin yarandığı lap ilk vaxtlardan meydana gələrək onun inkişafına təsir göstərən mühüm bir vasitə olmuşdur.

Beləliklə, sözün əsl mənasında tərbiyənin məzmunu və yolları haqqında mülahizə, fikir və təkliflər irəli sürülür, sınaqdan keçirilir və uzun illər boyu bir nəsildən başqa nəslə ötürülür. Pedaqogika elminin tarixinə bu baxışdan yanaşsaq, ona aid fikirlərə çox qədimdən bəri, daha doğrusu, bəşər cəmiyyətinin yarandığı vaxtdan etibarən təsadüf edildiyini söyləyə bilərik. Bu mənada Azərbaycanın görkəmli ictimai xadimlərindən və pedaqoqlarından olan S.M.Qənizadənin aşağıdakı sözləri çox yerində səslənir: "Dünyada hər bir iş və hər bir sənət tədriclə kamala çatdığı kimi, tərbiyə işi də qərinələr təcrübəsilə imtahanlardan çıxıb bu əsrimizdə dərəcəyi kəmalə yetişibdir".

Doğrudan da, şifahi xalq ədəbiyyatı nümunələri ilə tanışlıq göstərir ki, zəhmətkeş xalq tərbiyə sahəsində bir sıra adət və ənənələr, qayda və qanunlar yaratmışdır. Heç bir yerə yazılmamış olan bu adət və ənənələrin, qayda və qanunların əhatə dairəsi geniş olub, insanın öz-özünə, başqalarına, vətənə, təbiət və cəmiyyət hadisələrinə münasibətinə, adamın nə kimi sifətlərə, hansı keyfiyyətlərə yiyələnməsi məsələlərinə, müasir istilahlarla desək, pedaqogikanın ümumi məsələlərinə, təhsil, təlim və tərbiyənin mahiyyətinə, məzmununa, məqsədinə, forma və üsullarına, ailə tərbiyəsinə, tərbiyəçi probleminə və s. aiddir. Bütün bu məsələlər barəsində zəhmət adamlarının ya müstəqil şəkildə, ya dolayı yollarla, ya məcazi şəkildə, ya da ki, eyhamlarla və s. vasitələrlə ifadə etdiyi son dərəcə dərin və dəyərli fikirlər tarix boyu milyon-milyon insanların, o cümlədən maarifpərvər şair və ədiblərimizin ümumi inkişafına qüvvətli təsir göstərmişdir.

Yazılı ədəbiyyatımızın çox görkəmli nümayəndələrindən olan Q.Təbrizinin, M.Gəncəvinin, F.Şirvaninin, Ə.Xaqaninin, N.Gəncəvinin (XI-XII əsrlər), İ.Həsənoğlunun, Nəsiminin (XIII-XIV əsrlər), M.Füzulinin, Ş.Xətainin (XVI əsr), S.Təbrizinin (XVII əsr), M.P.Vaqifin, M.V.Vidadinin (XVIII əsr), A.Bakıxanovun, Q.Zakirin, M.F.Axundzadənin, S.Ə.Şirvaninin, H.Zərdabinin (XIX əsr), C.Məmmədquluzadənin, Ə.Haqverdiyevin, M.Ə.Sabirin (XX əsr) və başqalarının yaradıcılığından bunu sübut edən çoxlu misallar gətirmək olar. Məsələn, N.Gəncəvinin yazdığı orijinal nağıllardan "Bəhramın ova çıxması" nağılı öz quruluşu və ideyası etibarı ilə "Ovçu Məmməd" xalq nağılına, "Xeyir və Şər" nağılı isə "Mərd və Namərd" nağılına oxşayır. Bu nağıllardan çı-

xan tərbiyəvi nəticə də eynidir: adam gördüyü işin məqsədini özü üçün aydınlaşdırsa, hər cür çətinliyə qalib gələ bilər.

Azərbaycan və İslam dünyası nümunəsindən əldə edilmiş elmi ümumiləşdirmələr və nəticələr əsasında təhsil prosesində şagirdlərin islam mənəvi dəyərləri əsasında tərbiyəsinin səmərəsini yüksəltmək naminə aşağıdakı əməli təklifləri təqdim etmək məqsədəuyğun olardı:

- İslam mənəvi dəyərlərini aşılayarkən nəinki ölkənin, habelə təhsil müəssisələrinin yerləşdiyi mühit nəzərə alınmalıdır;

- İslam mənəvi dəyərlərini böyüməkdə olan nəslə aşılayarkən siniflərin ümumi bilik və mənəvi səviyyəsi ilə yanaşı, şagirdlərin fərdi mənəvi hazırlıqları, psixoloji durumları öyrənilməlidir;

- İslam mənəvi dəyərlərini şagirdlərə aşılayarkən ailə və məktəbin birgə işinə diqqət yetirilməlidir;

- Azərbaycan Respublikasında tədris prosesində şagirdlərin islam mənəvi dəyərləri əsasında tərbiyəsi zamanı müəllim və ailənin yeri, birgə tərbiyə işi müəyyənləşdirilmişdir.

Şagirdlərin tədris prosesində islam mənəvi dəyərlərini kompleks şəkildə aşılayarkən bəzi mənəvi dəyərlərə (namaza, oruca, həccə, möhkəm əqidəliliyə, mənəvi saflığa, təvazökarlığa və s.) üstünlük verilməlidir.

Şifahi xalq yaradıcılığının qaynaqlarına əsaslanmaq bugünkü gənclərimiz üçün daha çox əhəmiyyətlidir.

Ailə münasibətlərində, ailə-nikah məsələlərində gənclərin islam əxlaqi nəzəriyyəsi ilə dərindən tanışlığı daha çox vacibdir.

Fikrimizcə, təqdim olunan təkliflərin nəzərə alınması ailənin, o cümlədən şagirdlərin islam mənəvi dəyərləri əsasında tərbiyəsinin səmərəsini daha da yüksəldərdi.

Rəyçi: prof. Ə.Ağayev

İstifadə edilmiş ədəbiyyat

1. Kazımov N. Məktəb pedaqogikası. Bakı, 2009.

2. Axund Hacı Salman. Hidayət yolu. Bakı, 2000.

3. Baxışova S. İslam dəyərləri və kiçikyaşlı uşaqların mənəvi tərbiyəsi. Bakı, 2009.

4. Həşimov Ə., Sadıqov F. Azərbaycan xalq pedaqogikası. Bakı, 2000.

М.Гасанов

Национально-моральные ценности источник семейного воспитания

Резюме

В статье говорится о роли национально - моральных ценностей в формировании учащихся как личность отмечается забота старшего поколения во всех этапах развития общества.

M.Hassanov

National moral values is the upbringing school of family

Summary

In the article it is spoken about the role of national moral values in forming students' personality. It is noted that the adults always took care of the youth in the development history of the society.